**UOT 327"71"**

# ABŞ-ERMƏNİSTAN ƏLAQƏLƏRİNİN QURULMASI VƏ İNKİŞAFI

**Mehrac ALLAHVERDİYEV***

Məqalə redaksiyaya daxil olmuşdur: 31 oktyabr 2024; çapa qəbul edilmişdir: 23 noyabr 2024; online-da çap edilmişdir: 19 mart 2025.
Received: 31th of October, 2024; accepted: 23th of November, 2024; published online: 19th of March, 2025.

**Açar sözlər:** *ABŞ-Ermənistan əlaqələri, Ermənistan, ABŞ, SSRİ, Cənubi Qafqaz, Avropa İttifaqı*

## Giriş

ABŞ dünyanın yeganə fövqəldövləti olub, planetin nəhəng siyasi güc mərkəzidir. Birləşmiş Ştatlar dünyada mövcud olan təxmini 4 mindən çox beynəlxalq və məhəlli təşkilatın ya yaradıcısı, ya da ən əsas maliyyələşdiricisidir. ABŞ həm də dünyanın əsas hərbi güc mərkəzi hesab olunur. Şübhəsiz, belə geniş imkanları olan ABŞ-ın dünyanın istənilən yerində baş verəcək hadisə və münaqişəyə dərhal təsir etmək, prosesləri qaydaya salmaq qətiyyəti kifayət qədərdir.

SSRİ-nin dağılması, yeni dünya quruculuğunda ABŞ-ın mərkəzi qüvvə olmağa can atması, ölkədaxili etnik və digər münaqişələrin törədilməsi müasir geosiyasi inqilabın əsas göstəriciləridir. Buna görə də müasir dövrdə Cənubi Qafqaz regionu beynəlxalq münasibətlərin əsas subyektlərindən birinə çevrilmişdir. Bu regiona SSRİ dağılandan sonra müstəqillik əldə etmiş Azərbaycan, Gürcüstan və Ermənistan daxildir. Regionda müxtəlif mədəniyyətlərin, dil qruplarının, dini müxtəlifliklərin, etnik-mədəni cəmiyyətlərin çoxluğu kimi xüsusiyyətlər Cənubi Qafqazı ziddiyyətli qarşıdurmalar və münaqişələr bölgəsinə çevirir.

Beynəlxalq münasibətlər sistemində Cənubi Qafqazın oynadığı rol onun əsas əhəmiyyətini ön plana çıxardır. SSRİ dağılandan sonra Cənubi Qafqaz ayrıca bir region kimi dünyanın siyasi xəritəsinə daxil olmuşdur. Belə ki, regionu təşkil Azərbaycan, Gürcüstan və Ermənistan müstəqillik qazanaraq dünyanın beynəlxalq arenasına keçmişdir. Həmin dövrdən etibarən çox da böyük əraziyə malik olmasa da, bu region dünyanın aparıcı və öndə gedən dövlətlərinin həmişə diqqət mərkəzində olmuşdur.

Cənubi Qafqazın kiçik regionu sayılan Ermənistan hər zaman öz xarici siyasətində Avropaya can atmağa çalışmışdır. Belə ki, Ermənistan ona ABŞ tərəfindən qoyulan kapitaldan yararlanaraq həmişə öz iqtisadi inkişafını sürətləndirmək siyasəti yeritmişdir [2, s. 229].

## 1. ABŞ və Ermənistan siyasi diplomatik münasibətlərin qurulması

Ermənistan Qafqaz regionunda yerləşən, şimalında Gürcüstan, şərqində Azərbaycan, cənubunda İran və qərbində Türkiyə ilə həmsərhəd olan, dənizə çıxışı olmayan, dağlıq bir ölkədir. Ermənistanın Avropa və Asiya arasında yerləşməsi, həmçinin ABŞ-la onun

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* mehrac2oo1a@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.1.022**

arasındakı möhkəm əlaqələr bu ölkənin sabitliyini və rifahını ABŞ-ın mühüm marağına çevirirdi [9]. 1991-ci ildə Sovet İttifaqının dağılması Soyuq Müharibəyə son qoymaqla yanaşı ABŞ-ın Ermənistan və digər postsovet dövlətləri ilə diplomatik münasibətlərinin başlamasına şərait yaratdı. Lakin buna baxmayaraq, ABŞ-Ermənistan əlaqələri rəsmi diplomatik münasibətlərin qurulmasından daha əvvəl yaranmışdı. Belə ki, 1919-cu ildə prezident Vudro Vilsonun hakimiyyəti dövründə Amerika hökuməti 1915-ci ildə soyqırımda zərər çəkən bütün ermənilərə yardım göstərmişdi.

1991-ci ildə ABŞ Ermənistanın müstəqilliyini tanıdı. 1992-ci ildə ABŞ İrəvanda, Ermənistan isə 1993-cü ilin fevralında səfir Ruben Şuqaryanın gəlişi ilə Vaşinqtonda öz səfirliyini açdı. Ermənistanda ABŞ səfirliyinin açılması ilə iki ölkə arasında humanitar və iqtisadi yardım göstərilməsi haqqında ikitərəfli saziş imzalandı [7]. Amerika Birləşmiş Ştatları Ermənistanın avtoritarizmdən demokratiyaya və azad bazara keçdiyi çətin dönəmdə də ondan lazımi köməkliyi əsirgəməmişdir. 1992-ci ilin oktyabr ayında qəbul edilmiş Dəstək Aktı onların davamlı tərəfdaşlığının başlanğıcı oldu. Lakin 1992-ci ildən daha əvvələ nəzər salsaq, əslində ABŞ-ın yardım proqramının 1988-ci ildən başlandığını görə bilərik. Belə ki, həmin il Ermənistanın şimalında 6,9 bal gücündə baş vermiş dəhşətli zəlzələ 25.000-dən çox insanın həyatına son qoydu və təxminən 500.000-ə yaxın erməni evsiz qaldı. Ermənistandakı bu təbii fəlakətə reaksiya verən və ona təcili yardım göstərən 74 ölkə arasında ABŞ ilk sıralarda yer alırdı. ABŞ-ın böyük reaksiyası bu iki ölkə arasında olan dərin münasibətlərdən xəbər verirdi. Həmin dövrdə Ermənistanın zəlzələdən çəkdiyi zərəri minimuma endirmək üçün bu məsələlərlə ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi məşğul olurdu. Eyni zamanda bu agentlik sonrakı illərdə zəlzələdən zərər çəkmiş 7000 ailənin daimi mənzil əldə etməyinə də köməklik göstərdi. Daha sonra isə müvəqqəti sığınacaqlarda olan 100-dən çox bina, həmçinin məktəblər, uşaq bağçaları, ictimai yerlər məcburi köçkün sakinlərdən təmizlənərək ümumi istifadəyə verildi [4, s. 46].

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin 1992-1998-ci illərdəki proqramları Ermənistana zəlzələdən, müharibədən sonrakı və postsovet iqtisadi çöküşü ilə mübarizədə kömək etmək üçün ərzaq, yanacaq, dərman və geyimə diqqət yetirərək, humanitar yardıma yönəldi. Agentlik 1998-2005-ci illərdə Ermənistana daha çox texniki dəstək göstərmişdir [6].

Ümumiyyətlə, zəlzələdən qalan ziyanı bərpa etmək üçün Amerika Birləşmiş Ştatları müxtəlif proqramlar çərçivəsində Ermənistana humanitar və texniki cəhətdən təxminən 3 milyard dollar yardım göstərmişdir [7]. 1992-ci ildə Ermənistan və ABŞ arasında ticarətə təsir edən üç əsas müqavilə imzalandı: "Ticarət əlaqələri haqqında saziş", "İnvestisiyaların təşviqi haqqında saziş", "İnvestisiyaların qarşılıqlı həvəsləndirilməsi və qorunması haqqında saziş". Bütün bu sazişlərin hamısı 1996-cı ilin sentyabrında qüvvəyə mindi. 1994-cü ildə qəbul edilmiş "Xarici İnvestisiya haqqında" qanun ilə ABŞ-dan olan bütün birbaşa investisiyalar tənzimlənməyə başladı. Bu sazişlərin qəbul olunmasına baxmayaraq tərəfdaşlıq edən bu iki ölkə arasında ikitərəfli vergi müqaviləsi yoxdur [2, s 157]. 1999-cu ildə ABŞ-ın Ermənistana yardımının gedişatını və məqsədlərini nəzərdən keçirmək üçün hər il toplanacaq olan ABŞ-Ermənistan İşçi Qrupu yaradıldı. Bu İşçi Qrupu həm Ermənistan, həm də ABŞ hökumətlərinin iqtisadi əlaqələrini dərinləşdirmək, onlar arasında ticarət və investisiyaları artırmaq, Ermənistanda biznes mühitini və bazar islahatlarını davam etdirmək haqqında müzakirə etmək imkanına malik idi. Həmçinin bu komissiyada ABŞ-ın Ermənistanın uzunmüddətli inkişafına töhfə verməsi üçün yardım imkanları da geniş müzakirə olunurdu [6]. Amerika Birləşmiş Ştatları ilə Ermənistanın hərbi əməkdaşlığı isə 2000-ci ildə başladı. Sovet İttifaqının dağılması ilə bağlı problemlər həll olunduqdan sonra Ermənistan ABŞ-la getdikcə daha çox birgə tədbirlərə başladı. Ermənistan ildə bir və ya iki dəfə olmaqla, 2009-cu ilə qədər demək olar ki, 1000 peşəkar

tədbir keçirdi. Ermənistan, həmçinin ABŞ-ın Avropa Komandanlığı, ABŞ Hərbi Hava Qüvvələrinin Avropa, NATO və Avropa ölkələri ilə də əlaqə saxlamağa başladı [6].

2003-cü ildə ABŞ Ermənistanda təlim və mübadilə proqramları yaratmağa başladı. Bu proqramların əsas məqsədi Ermənistan liderlərinin gələcək nəslinə bazar əsaslı, demokratik sistem ilə bağlı təcrübələrin ötürülməsi idi. ABŞ-ın kənd təsərrüfatı və kiçik və orta sahibkarlıq sektorlarını inkişaf etdirmək proqramları 2003-cü ildə Ermənistanda müşahidə olunan güclü iqtisadi artımı dəstəkləyirdi. Ermənistanın həmin dövrdə yeni seçilmiş parlamenti ölkənin qanunvericilik və vətəndaş cəmiyyəti proqramları vasitəsilə Ermənistanda demokratik strukturları gücləndirirdi. 2003-cü maliyyə ilində Ermənistana yardım proqramları üçün ABŞ-ın bütün hökumət qurumları tərəfindən büdcədə toplanan 106,5 milyon dollar vəsait ayırdı. Bu proqramlara həm də demokratiya, iqtisadi, qrant, təhlükəsizlik kimi proqramlar daxil idi [3, s. 2]. Ermənistanda demokratiya proqramları vətəndaşların ictimai işlərdə iştirakını artırmağa, qanunun aliliyini gücləndirməyə, yerli və dövlət idarəçiliyini təkmilləşdirməyə, müstəqil medianı dəstəkləməyə çalışırdı. ABŞ yardımı icma problemlərini həll etmək üçün yerli hökumət rəsmilərini və vətəndaşları bir araya gətirən kütləvi təbliğat qruplarını və təşəbbüsləri dəstəkləyir, vətəndaş təhsili materiallarını və kurikulumlarını hazırlayır, qeyri-hökumət təşkilatlarının (QHT) işini gücləndirirdi. Jurnalistlər, redaktorlar və media orqanlarının menecerləri biznesin idarə edilməsi, fakta əsaslanan jurnalistika və araşdırma jurnalistikası üzrə təlim keçirirdilər.

Avrasiya Fondu və ABŞ-ın Yerevandakı səfirliyi tərəfindən idarə olunan kiçik qrant proqramları QHT-lərin vətəndaş cəmiyyətini inkişaf etdirmək, yerli hökumətlərin hesabatlılığını artırmaq və müstəqil mediaya dəstək vermək işini dəstəkləyirdi. Ermənistanda iqtisadi yardım proqramı aqrobiznes ixracının inkişafına diqqət yetirməklə, kiçik və orta sahibkarlıq subyektlərinin kredit imkanlarını artırmağa, vergi və gömrük göstəricilərini və büdcə idarəçiliyini təkmilləşdirməyə, mərkəzi bank nəzarətini gücləndirməyə, ənənəvi və qeyri-ənənəvi kapital bazarlarını inkişaf etdirməyə çalışırdı. ABŞ Xəzinədarlığının məsləhətçiləri Maliyyə və İqtisadiyyat Nazirliyinin yeni tədris mərkəzini avadanlıq, təlim materialları və texniki məsləhətlərlə dəstəkləyirdi. 2003-cü maliyyə ilində ABŞ Ticarət və İnkişaf Agentliyi Ermənistan Kosmik Tədqiqatlar Mərkəzinə kommersiya peyk yer stansiyasının yaradılması və istismarı üzrə texniki-iqtisadi əsaslandırma üçün qrant ayırdı. ABŞ Kənd Təsərrüfatı Departamentinin (USDA) Marketinqdə Yardım Proqramı 56 kiçik və orta aqrobiznes və 21 fermer marketinq assosiasiyasına texniki, maliyyə və marketinq yardımı göstərməyə bu gün də davam edir [4, s. 53].

Ermənistanda İxrac Nəzarəti və Əlaqəli Sərhəd Təhlükəsizliyinə Yardım Proqramı (EXBS) kimi təhlükəsizlik proqramları Ermənistan Gömrük və Sərhəd Mühafizələrinə avadanlıq və təlim verməklə silahların yayılmasının və digər qeyri-qanuni dövriyyənin qarşısını almaq üçün Ermənistanın imkanlarını artırmaq məqsədi daşıyırdı. ABŞ nüvə reaktorunun təhlükəsizliyinin artırılmasını və radioloji dağıdıcı qurğuların təhlükəsinin qiymətləndirilməsi və ona qarşı mübarizə proqramını dəstəkləyirdi. Xarici Hərbi Maliyyələşdirmə və Beynəlxalq Hərbi Təhsil və Təlim proqramları peşəkar hərbi təhsilə, Ermənistan ordusu üçün sülhməramlı imkanların yaradılmasına və hərbi kommunikasiya imkanlarının modernləşdirilməsinə yönəlmişdi. Bu proqramlar qarşılıqlı fəaliyyətə və regional sabitliyə kömək etmək məqsədi daşıyırdı. Ermənistan 2003-cü ildə ABŞ-ın Müdafiə Nazirliyi və Kanzas ştatı ilə Kanzas-Ermənistan Dövlət Tərəfdaşlığı Proqramını yaradan ikitərəfli əlaqələr sazişi imzaladı. Tərəfdaşlıq fövqəladə halların idarə edilməsi və fəlakətlərə cavab, sərhəd və liman təhlükəsizliyi, iqtisadi təhlükəsizlik, sülhməramlılıq kimi sahələrdə bilik mübadiləsi aparmaq üçün Ermənistan Müdafiə Nazirliyi ilə Kanzas Milli Qvardiyası, eləcə də müxtəlif mülki təşkilatlar arasında özünü təmin edən əlaqələri inkişaf etdirmək məqsədi daşıyırdı. Keçmiş Kanzas qubernatoru Ketlin Sebelius daha sonra 18 iyun 2004-cü il tarixini Kanzas-Ermənistan Tərəfdaşlığı Günü elan edən bəyannamə

imzaladı [3, s. 5]. 27 mart 2006-cı ildə Ermənistan ABŞ ilə Minilliyin Çağırışı Sazişini imzaladı. Bu saziş 29 sentyabr 2006-cı il tarixində qüvvəyə mindi. Ermənistan hökuməti qarşılıqlı razılaşdırılmış siyasət icra meyarları, yəni korrupsiya, ədalətli idarəçilik üzrə irəliləyiş əldə etmək şərti ilə, saziş kənd təsərrüfatının azaldılması üçün beş il ərzində Ermənistana 235 milyon dollar verməli idi. 2008-ci ilin may ayından etibarən, demokratik idarəetmənin statusu ilə bağlı narahatlıqlara görə, Minilliyin Çağırışları Korporasiyası suvarma infrastrukturuna yardım göstərməkdə davam edir. 2009-cu ilin iyununda bu korporasiya elan etdi ki, o, artıq heç bir əlavə yol tikintisi və bərpası üçün maliyyələşdirməni bərpa etməyəcək [4, s. 38]. ABŞ Cənubi Qafqaz regionunda sülhün bərqərar olmasının tərəfdarı olmaqla yanaşı, Ermənistanla Azərbaycan arasında problemin həllinə də cəhdlər göstərmişdir. Lakin, 2020-ci ildə Dağlıq Qarabağ müharibəsi başlayanda ABŞ müharibədə Ermənistana öldürücü silahlar verməklə ona yardım etməyə çalışırdı. Bu haqda məlumat əldə edən Türkiyə ABŞ-ın bu yardımını açıq-aşkar Azərbaycana bəyan etdi. Sonradan Türkiyə ilə müttəfiq olan Azərbaycan arasında ABŞ-la münasibətlər pisləşdi və ABŞ həmin ilin dekabrında Türkiyəyə embarqolar tətbiq etdi. Türkiyə ilə ABŞ arasında gərginlik artdıqca, Ermənistanla ABŞ arasında münasibətlər daha da yaxşılaşdı [1, s. 8].

2023-cü il 11 sentyabr tarixində ABŞ və Ermənistan arasında ilk dəfə birgə hərbi təlimlər baş tutdu. Bu zaman Ermənistan Müdafiə Nazirliyi bəyan etmişdi ki, bu təlimlər Ermənistan Silahlı Qüvvələrinin beynəlxalq sülhməramlı missiyalarda iştirak etmək istiqamətində yönəlib. ABŞ komandanlığının polkovniki Martin O'Donnell demişdi ki, keçirilən təlimlər "iki xalqın əsgərləri üçün taktiki səviyyədə yeni əlaqələr qurmaq və sülhməramlı əməliyyatlar üçün qarşılıqlı fəaliyyət qabiliyyətini artırmaq üçün həyati bir fürsətdir". Təlim zamanı təxminən 85 ABŞ əsgəri təxminən 175 erməni əsgəri ilə birlikdə təlim keçmişdi. Paşinyan təlim zamanı bu cür hərbi əməkdaşlığın Ermənistana ABŞ və digər Qərb müttəfiqləri ilə daha sıx əlaqələr qurmağa imkan verəcəyini bildirmişdi [8]. Bir neçə gün sonra, yəni 19-20 sentyabr tarixləri arasında Ermənistan Azərbaycana qarşı genişmiqyaslı hərbi hücuma başladı. Bu, 2020-ci ildə İkinci Dağlıq Qarabağ müharibəsindən sonra imzalanmış atəşkəs sazişinin pozulması kimi qiymətləndirildi. Hücum Azərbaycanın bir hissəsi olan və mübahisəli Dağlıq Qarabağ bölgəsində baş verdi. 24 saat davam edən hərbi əməliyyatlar sentyabrın 20-də əldə olunan razılığa əsasən dayandırıldı.

Razılığa əsasən, Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoymalı, döyüş mövqelərindən və hərbi postlardan çıxmalı, Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərindən çıxmalı, qeyri-qanuni erməni silahlı dəstələri buraxılmalı, bütün silah-sursat təhvil verilməli idi. Hücum və sonrakı təslim Dağlıq Qarabağ ermənilərinin qaçması ilə nəticələndi ki, bunun nəticəsində Dağlıq Qarabağın demək olar ki, bütün əhalisi regiondan qonşu ölkələrə, ilk növbədə Ermənistana qaçdı [8]. ABŞ Ermənistan hökumətinin Azərbaycanın 19 sentyabr hərbi əməliyyatından sonra evlərini tərk etmiş məcburi köçkünlərə kömək etmək səylərini dəstəkləyirdi. Birləşmiş Ştatlar baş nazir Paşinyanın hökuməti və humanitar təşkilatlarla ikitərəfli yardımı müəyyən etmək və təmin etmək üçün sıx əməkdaşlıq edirdi. Azərbaycan və Ermənistan arasında həlledici siyasi, iqtisadi, humanitar və təhlükəsizlik məsələləri Birləşmiş Ştatlar üçün diqqət mərkəzində qalır və o, hər iki tərəfi ən yüksək səviyyədə dialoqa davam etməyə təşviq etməyə davam edirdi.

## 2. Münasibətlərin hazırkı səviyyəsi və gələcəyinə dair proqnozları

ABŞ ilə Ermənistan arasındakı siyasi münasibətlər müasir dövrdə də müsbət istiqamətdə qalmaqda davam edir. Belə ki, hələ də ABŞ lazımi məqamlarda, xüsusilə təxribat, antiterror əməliyyatlarında, münaqişəli məsələlərdə Ermənistanı dəstəkləyir. Buna görə

də, Co Bayden ABŞ prezidenti seçiləndən sonra erməni məsələlərində müsbət addımlar atıb: o, Ermənistanı "Demokratiya naminə" sammitinə dəvət edərək Azərbaycan və Rusiyanın etirazına səbəb olub. Bununla, o, daxili demokratik islahatları dəstəkləyib, siyasi və hərbi mənada Azərbaycanın Ermənistan ərazisinə qarşı hərbi hücumlarının qarşısını almaq üçün diplomatik dəstək göstərmiş, Azərbaycanın açıq şikayətlərinə baxmayaraq, beynəlxalq təşkilatlarda erməni məsələlərinin müzakirəsi zamanı Ermənistanı müdafiə etmişdir.

2022-2023-cü illər ərzində Ermənistan üç dəfə BMT Təhlükəsizlik Şurasına müraciət edib: iki dəfə Laçın Dəhlizinin bağlanması zamanı, bir dəfə Azərbaycanın həyata keçirdiyi hərbi müdafiə hücumu zamanı. Beləliklə, bir neçə ildə Ermənistan üç dəfə ABŞ-ın dəstəyini alıb.

ABŞ və Ermənistanın gələcək əlaqələrinin gücləndirilməsində erməni lobbisinin və digər erməni qruplarının da payı vardır. Çünki onların fəaliyyətinin əsas istiqaməti ABŞ-ın daxili və xarici siyasətinə təsir göstərməkdir [7].

Hal-hazırda da müxtəlif müzakirələr zamanı da ABŞ rəsmiləri Ermənistanın lehinə çıxış etməkdə davam edir. Təsadüfi deyil ki, ABŞ səfiri Yuri Kim Ermənistan-Azərbaycan sərhədindən bəyan etmişdi ki, ABŞ Ermənistanın suverenliyini və təhlükəsizliyini dəstəkləməyə sadiqdir. Onun bu bəyanatı açıq-aydın göstərirdi ki, səfirin mesajı sadəcə söz deyil və ABŞ hər zaman Ermənistana konkret və maddi dəstək verməyə hazırdır. Həmçinin ABŞ rəsmiləri tez-tez Ermənistanla görüşlərində Ermənistanın inkişafına töhfə verəcək üçtərəfli əməkdaşlığın əhəmiyyətini qeyd edir. Onlar danışıqların Ermənistanın müqavimətinin gücləndirilməsi məqsədi daşıdığını deyir və yaxın gələcəkdə görüşlərdə bu kimi məsələlərlə bağlı daha ətraflı danışmaq imkanı olacağını vurğulayırlar. Elə bu yaxınlarda yəni, 5 aprel tarixli Aİ-Ermənistan-ABŞ görüşünün təfərrüatları barədə məlumatda qeyd edilir ki, hər 3 tərəf gündəliyin Ermənistanın iqtisadi dayanıqlılığı, eləcə də humanitar ehtiyacları mövzularına fokuslanacağını bildirib. Buna baxmayaraq, digər regional güclər tərəfindən bu toplantı birmənalı qarşılanmadı. Lakin Avropa İttifaqı və ABŞ rəsmilərinin bəyanatlarından belə aydın olur ki, Ermənistana təhlükəsizlik qarantiyaları verilməsi ilə bağlı müəyyən tərəddüdlər var. Buna görə də, onlar Ermənistana demək olar ki, daha çox iqtisadi dəstək üzərində dayanırlar. ABŞ Cənubi Qafqaz siyasətinə Balkanlardan Mərkəzi Asiyaya qədər geniş ərazini əhatə edəcək sabitlik zonasının yaradılması və NATO-nun Mərkəzi və Şərqi Avropaya doğru genişlənməsinə göstərdiyi geniş strateji səyin bir hissəsi kimi baxır. Bunu Ermənistana göstərilən maliyyə dəstəyinin olması bir daha təsdiqləyir. Bu ölkə dünya üzrə ən böyük maliyyə dəstəyi alan ölkələr sırasındadır [9]. ABŞ-ın Ermənistanla bağlı hazırkı məqsədi ona göstərdiyi yardımın həcmini artırmaq, onun müdafiə, tərəfdaşlıq və təhlükəsizlik sektorunu genişləndirməkdir. Bu səbəbdən də yaxın günlərdə Vaşinqtonla İrəvan arasında təhlükəsizlik və müdafiə ilə bağlı əməkdaşlıq müzakirə olunub. ABŞ və Ermənistan arasında hərbi sahə üzrə aktiv müzakirələr aparılır. Müzakirələrə əsasən, Amerika Birləşmiş Ştatlarından Ermənistana hərbi müşavir də göndəriləcək. ABŞ-dan göndəriləcək hərbi məsləhətçi Ermənistan Müdafiə Nazirliyində işləyəcək və hərbi potensialın artırılmasına kömək edəcək. ABŞ-dan Ermənistana hərbi məsləhətçinin göndərilməsi bu əməkdaşlığın dərinliyindən xəbər verir.

Bununla yanaşı Ermənistanın hərbi sahədə nəyə ehtiyacı olacağı ilə bağlı davamlı müzakirələr də aparılır. Artıq bəzi məsələlərdə razılıq belə əldə edilib. Bu məsələlərdən biri də Ermənistanın münaqişə bölgəsinə daxil ola biləcək zirehli təcili yardım maşınları istəməsidir. ABŞ bu məsələ ilə bağlı Ermənistanla razılığa gəlib. Hazırda bu texnikanın göndərilməsi yolları üzərində işlənilir.

Hal-hazırda gündəmdə olan əsas məsələ ABŞ-ın Ermənistana hərbi texnika verməsidir. ABŞ-ın verə biləcəyi mümkün hərbi texnikanın Azərbaycana qarşı istifadə ediləcəyi aydındır. Ermənistan zirehli təcili yardım maşınlarından Azərbaycanın sərhədində istifadə etməyi planlayır.

Ermənistanın gələcək münasibətlərini müsbətə doğru proqnoz etmək olar. Göründüyü kimi, ABŞ, demək olar ki, Ermənistanın hərbi məsələlərində ona dəstək durmaqla bərabər, həm də lazımi texnikalarla təmin edir. O, Ermənistanı hər zaman müdafiə edir, onun inkişafı üçün müxtəlif yardım proqramları təşkil edir.

Hadisələrin gedişatı onu göstərir ki, bu iki ölkə arasındakı siyasi diplomatik münasibətlər və tərəfdaşlıq əlaqələri gələcəkdə daha da güclənəcək və inkişaf edəcəkdir [5, s. 28].

**Nəticə**

Tədqiqatın nəticəsi olaraq müəyyən etmək mümkündür ki, Ermənistan müstəqillik əldə etdikdən sonra daim ABŞ-ın diqqət mərkəzində olub. ABŞ və Ermənistan arasında rəsmi diplomatik münasibətlərin qurulması ilə tərəfdaşlıqları üçün daha geniş imkanlar açıldı. Güclü demokratik təsisatların qurulması, qanunun aliliyinin yüksəldilməsi və korrupsiya ilə mübarizə, həssas təbəqələrə humanitar dəstəyin göstərilməsi, iqtisadi imkanların açılması, maddi proqramlar vasitəsilə insanlara sərmayə qoymaq və regional sülh təşəbbüslərini dəstəkləmək amerikalılar və ermənilərin birlikdə çalışdıqları geniş ikitərəfli əlaqələri vurğulayır.

ABŞ və Ermənistanın siyasi sferada diplomatik münasibətləri bu gün də davam etməkdədir. Bu münasibətlərin daha sıx olması və inkişafı üçün ABŞ rəsmiləri öz çıxışlarında demək olar ki, hər zaman Ermənistanı müdafiə edir və hətta bəzi hallarda onu qorumağa da çalışır. ABŞ Ermənistana hərbi məsələlərdə də yardım edir. Birgə hərbi təlimlərin keçirilməsi, Ermənistanı mümkün hərbi texnika ilə təmin etmək bu iki ölkə arasında hərbi tərəfdaşlığın bariz nümunəsidir. Ermənistan da ABŞ-la əlaqələri daha da genişləndirmək üçün bir çox addımlar ataraq öz iqtisadi inkişafını sürətləndirmək siyasəti yeritmişdir. O, ABŞ-la tərəfdaşlıq edərək həm də özünü bu hegemon dövlətin vasitəsilə digər siyasi güclərdən qorumağa çalışır.

Beləliklə, ABŞ Ermənistan münasibətlərini analiz edərkən belə nəticəyə gəlmək olar ki, gələcəkdə də nəinki siyasi sferada, həmçinin digər sferalarda da bu iki ölkənin diplomatik əlaqələri daha da inkişaf edib dərinləşəcək.

## ƏDƏBİYYAT


1. Məmmədli M. ABŞ-ın Cənubi Qafqaz siyasəti kontekstində Azərbaycanla münasibətləri: əsas məqamlar. Təhlil. Bakı: Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, 2023, 11 s.
2. Mustafayeva S.M. ABŞ-ın xarici siyasəti (1945-2010-cu illər). Dərs vəsaiti. Bakı, 2011, 301 s.
3. Jennings R. S. Upgrading U.S. Support for Armenia's Post revolution Reforms, 2019, 7 p.
4. Sargisyan S. The establishment of the US-Armenia relations and the US policy towards Armenia//. 2018: Armenian Journal of Political Science 1 (8), 2018, p.37-58.
5. USAID / Armenia. Country Development Cooperation Strategy, 2020, 34 p.
6. Armenia. (https://www.usaid.gov
7. Armenia-United States relations. (https://www.state.gov).
8. Report genocides december 2023. (https://luismorenoocampo.com).
9. Thirty years of partnership. (https://am.usembassy.gov).


***Резюме***

***Мехрадж Аллахвердиев***

***Установление и развитие отношений США с Арменией***


Роль, которую играет Южный Кавказ в системе международных отношений, выдвигает на первый план его главное значение. После распада СССР Азербайджан, Грузия и Армения, составляющие регион Южного Кавказа, обрели независимость и вышли на мировую международную

арену. После обретения независимости Армения всегда была в центре внимания США. С установлением официальных дипломатических отношений между США и Арменией открылись более широкие возможности для их партнерства. Создание сильных демократических институтов, оказание гуманитарной помощи уязвимым слоям населения, открытие экономических возможностей, инвестиции в людей посредством реальных программ и поддержка региональных мирных инициатив подчеркивают широкие двусторонние отношения, в которых американцы и армяне работают вместе. Политические отношения между США и Арменией и в наше время продолжают оставаться в положительном направлении. Таким образом, США по-прежнему поддерживают Армению в необходимых ситуациях, особенно в провокациях, антитеррористических операциях и конфликтных вопросах. В целях укрепления и развития этих отношений официальные лица США в своих выступлениях почти всегда защищают Армению, а в некоторых случаях даже пытаются ее защитить. США также помогают Армении в военных вопросах. Проведение совместных военных учений и предоставление Армении возможной военной техники является ярким примером военного партнерства между этими двумя странами. Армения всегда проводила политику ускорения своего экономического развития, используя капитал, инвестированный Соединенными Штатами. Сотрудничая с Соединенными Штатами, он также пытается защитить себя от других политических сил через это государство-гегемон. Таким образом, ход событий показывает, что политико-дипломатические отношения и партнерские отношения между этими двумя странами в будущем будут укрепляться и развиваться дальше.

***Ключевые слова:*** *Отношения США-Армения, Армения, США, СССР, Южный Кавказ, Европейский Союз.*

***Summary***

***Mehraj Allahverdiyev***

***Establishment and development of US relations with Armenia***

The role played by the South Caucasus in the system of international relations brings its main importance to the fore. After the collapse of the USSR, Azerbaijan, Georgia and Armenia, which make up the South Caucasus region, gained independence and entered the world's international arena. After gaining independence, Armenia has always been the center of attention of the United States. With the establishment of official diplomatic relations between the United States and Armenia, wider opportunities for their partnership have opened up. Building strong democratic institutions, providing humanitarian support to the vulnerable, opening up economic opportunities, investing in people through tangible programs, and supporting regional peace initiatives underscore the broad bilateral relationship in which Americans and Armenians work together. The political relations between the USA and Armenia continue to remain in a positive direction even in modern times. So, the USA still supports Armenia in necessary situations, especially in provocation, anti-terrorist operations, and conflict issues. In order to strengthen and develop these relations, US officials almost always defend Armenia in their speeches and even try to protect it in some cases. The US also helps Armenia in military matters. Conducting joint military exercises and providing Armenia with possible military equipment is a clear example of military partnership between these two countries. Armenia has always implemented a policy of accelerating its economic development by taking advantage of the capital invested by the United States. By partnering with the United States, it also tries to protect itself from other political powers through this hegemonic state. Thus, the course of events shows that political diplomatic relations and partnership relations between these two countries will strengthen and develop further in the future.

***Keywords:*** *US-Armenia relations, Armenia, USA, USSR, South Caucasus, European Union*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.